**Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi**
**və**
**Almaniya Federativ Respublikasının Federal Statistika İdarəsi**
**arasında statistika sahəsində əməkdaşlıq haqqında**

# BİRGƏ NİYYƏT BƏYANNAMƏSİ

## I

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və Almaniya Federativ Respublikasının Federal Statistika İdarəsi statistika sahəsində əməkdaşlığın gücləndirilməsinə və ölkələr arasında əlaqələrin inkişafında qarşılıqlı əməkdaşlığın səmərəliliyinə inanaraq, aşağıdakıları qəbul etməyə razıdırlar:

## II

1. Tərəflər aşağıdakı istiqamətlər üzrə əməkdaşlıq edəcəklər:
   a) texniki əməkdaşlıq üzrə beynəlxalq proqramlarda iştirakla əlaqədar birgə işlərin davam etdirilməsi;
   b) statistik məlumat bazasının yaradılması və idarə olunması və statistik məlumatların toplanmasında informasiya texnologiyalarının tətbiq edilməsi də daxil olmaqla, statistika sahəsində informasiya texnologiyalarının tətbiq edilməsinə dair təcrübə mübadiləsi;
   c) yeni statistik metodlara dair məlumat mübadiləsi və müasir informasiya cəmiyyətinin tələblərinə uyğun statistik metod və üsulların tətbiq olunması;
   d) elmi-metodoloji tədqiqatların aparılmasında əməkdaşlıq və qarşılıqlı maraq doğuran layihələrin həyata keçirilməsi;
   e) statistik müayinələrin metodoloji və tematik məsələləri üzrə statistik nəşrlərin mübadiləsi;
   f) hər iki ölkənin sosial-iqtisadi inkişafına dair nəşrlərin (məsələn, illik statistik külliyatlar, tematik seriya və məcmuələr, bülletenlər) mübadiləsi.

2. Tərəflər bu birgə Bəyannamənin I maddəsində müəyyən edilmiş tədbirləri mütəxəssislərin qarşılıqlı təcrübə mübadiləsi əsasında həyata keçirməyə razıdırlar.

## III

1. Tərəflər bu əməkdaşlıq çərçivəsində nəzərdə tutulan aşağıdakı tədbirlərlə bağlı xərclərin Tərəflərin hər birinin qarşılayacağı nəzərə alınmaqla yerinə yetirilməli olmasını vurğulayırlar:

- ekspertlərin göndərilməsi;

- tədbirlərin yerinə yetirilməsinin təşkili.

2. Tərəflər daha sonra vurğulayırlar ki, fərdi tədbirlər yarana biləcək uyğunlaşdırma imkanları nəzərə alınaraq iki Tərəf arasında əlaqələndiriləcəkdir

IV

1. Tərəflər fərdi tədbirlərin yerinə yetirilməsi nəticəsində əldə olunan təcrübəyə əsaslanaraq istənilən zaman qarşılıqlı razılıq əsasında bu Birgə Niyyət Bəyannaməsinə yazılı şəkildə dəyişiklik və ya əlavə edilməsinə razıdırlar.

2. Tərəflər sənədin imzalandığı gündən Birgə Niyyət Bəyannaməsi çərçivəsində əməkdaşlığa başlaya biləcəklərinə və Tərəflərdən birinin bu əməkdaşlığın ləğv edilməsi təklifini irəli sürəcəyi vaxta qədər davam etdirəcəklərinə razıdırlar. Birgə Bəyannaməyə əsasən, bu halda təklifi irəli sürəcək Tərəf ən azı 3 ay əvvəlcədən yazılı şəkildə əməkdaşlığın ləğv edilməsi tələbini digər Tərəfə çatdırmalıdır.

Bu Bəyannamə Bakı şəhərində "26" aprel 2010-cu il tarixində Azərbaycan, alman və ingilis dilində olmaqla iki əsl nüsxədə imzalanmışdır.

| | |
|---|---|
| Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi adından | Almaniya Federativ Respublikasının Federal Statistika İdarəsi adından |